# Türk dünyasında liderlik missiyası






***2021**-ci il noyabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Türk Dünyasının Ali Ordeni" ilə mükafatlandırılması türk dünyasının öz oğluna verdiyi yüksək dəyərin əyani təcəssümüdür. Ölkə başçımızın türk dünyası üçün gördüyü işlər, Türk Dövlətləri Təşkilatının (TDT) yaradılmasından bu günə qədər qazanılan uğurların ən önəmli sütunlarından biri Qarabağ Zəfəridir. Türk Dövlətləri Təşkilatının genişlənməsində, beynəlxalq aləmdə təsir gücünün artmasında Azərbaycan Prezidentinin strateji baxışının və qətiyyətli addımlarının xüsusi yeri var. Bu təşkilat artıq öz təsir dairəsi ilə dünya siyasi arenasında mühüm rol oynayan bir güc mərkəzinə çevrilmişdir. Türk Dünyasının Ali Ordeni ilə təltif edilən cənab İlham Əliyev bu yüksək mükafatı Azərbaycan xalqının adından qəbul edərək bunu xalqımıza verilən qiymət kimi dəyərləndirdi. Bu mükafat Prezident İlham Əliyevin xalq ilə birliyini təcəssüm etdirdi. Bu orden həm də Azərbaycan xalqının milli qürurunu və liderinə olan sarsılmaz inamını simvolizə edir.*

Cənab Prezidentin türk dünyası qarşısındakı xidmətləri bununla bitmir. O, əsrlərlə parçalanmış, fiziki olaraq ayrılmış türk coğrafiyasını yenidən birləşdirən lider kimi adını tarixə yazmışdır. Məhz onun rəhbərliyi ilə 2020-ci ildə Qarabağ münaqişəsi həllini tapdı və Azərbaycan öz torpaqlarını işğaldan azad etdi. Bu, yalnız Azərbaycan üçün deyil, bütün türk dünyası üçün zəfər simvoluna çevrildi. Qarabağın azad edilməsi ilə türk dünyasının fiziki bütövlüyünə gedən yol daha aydın oldu və ümumi strateji məqsədlər yeni mərhələyə qədəm qoydu. Bu, həm də yeni iqtisadi perspektivlər açır: təqribən 150 milyonluq türk xalqının potensialı və 1.5 trilyon ABŞ dollarlıq iqtisadi gücü birləşərək böyük bir sinerji yaratmağa başlayıb. Xatırlatmaq yerinə düşər ki, 2009-cu ildə Naxçıvanda Türk Şurasının yaradılması ilə başlayan bu prosesin təməlində İlham Əliyevin uzaqgörən siyasəti dayanır. Hələ o zaman Şuranın təməli atılarkən, Prezident türk dünyasının fiziki birləşməsinin vacibliyinə diqqət çəkmiş, Naxçıvanın anklav vəziyyətindən çıxarılmasının əhəmiyyətini vurğulamışdır. Bu gün isə Prezident İlham Əliyevin həyata keçirdiyi hərbi-siyasi strategiya sayəsində bu ideallar gerçəyə çevrilir. Ölkə başçımızın qeyd etdiyi kimi, Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərimizi davam etdirəcəyik. Bu, bizim üçün prioritetdir. Mən bunu açıq demək istəyirəm, yəqin ki, indi aparılan siyasət də hər kəsə bunu aydın göstərir. Bu, bizim üçün əsas beynəlxalq təşkilatdır, çünki bu, bizim ailəmizdir. Bizim başqa ailəmiz yoxdur. Bizim ailəmiz Türk dünyasıdır.

Azərbaycan hər zaman türkdilli ölkələrin birliyini xarici siyasətində prioritet olaraq görmüş, xalqların bir-birinə daha sıx bağlı olduğu bir gələcək qurmağa çalışmışdır. Təşkilata ikiillik sədrliyi dövründə də Azərbaycan türkdilli xalqların dostluq və qardaşlıq bağlarını daha da gücləndirmək üçün çox mühüm addımlar atmışdır. Azərbaycanın sədrliyi təsadüfən pandemiya dönəminə düşsə də bu çətinliklərə baxmayaraq, türkdilli dövlətlərin həm ikitərəfli, həm də çoxtərəfli səviyyədə daha da yaxınlaşmasını təmin etdi. Çətin zamanlarda belə birlik və həmrəylik nümayiş etdirən türkdilli dövlətlər bir-birinə dəstək oldu və çətin vəziyyətlərdə birliyin gücünü bir daha sübut etdi. Azərbaycan pandemiya dövründə həm milli səviyyədə, həm də Türk Şurası daxilində təşəbbüslər irəli sürərək türkdilli dövlətlərin bir-birinə dəstək verə bilmələri üçün şərait yaratdı. Bununla da Türk Şurasının qlobal nüfuzu artdı, təşkilatın beynəlxalq arenada etibarlı və güclü bir platforma olduğu bir daha təsdiqləndi. Bu dövr Azərbaycan üçün yalnız bir sədrlik deyil, türkdilli dövlətlərin bir araya gələ və bir yerdə daha güclü ola biləcəyini göstərən tarixi mərhələ oldu.

Türk Dövlətləri Təşkilatına Özbəkistanın da tamhüquqlu üzv kimi qoşulması təşkilatın möhkəmlənməsində xüsusi rol oynamışdır. Bu, türkdilli dövlətlərin həmrəyliyinin, birliyinin əyani sübutudur. Bununla yanaşı, Azərbaycan ilə Türkmənistan arasında vaxtilə mübahisəli olan "Dostluq" neft yatağının ortaq istismara verilməsi isə türk qardaşlığı və əməkdaşlığının başqa bir uğurlu nümunəsidir. Bu layihə ilə Türkmənistan təşkilata üzv olmaq qərarı vermiş və qardaş ölkələrlə birgə böyük strateji layihələr həyata keçirməyə başlamışdır. Qeyd edək ki, TDT-yə Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan və Özbəkistan tamhüquqlu üzvdür. Macarıstan, Şimali Kipr və Türkmənistan isə müşahidəçi statusunda təmsil olunurlar.

Yeri gəlmişkən, dünya güclərinin öz maraqları uğrunda amansız rəqabət apardığı bir dövrdə türkdilli dövlətlər arasında birliyin və əməkdaşlığın daha da dərinləşməsi zərurətə çevrilib. Bölgədə dəyişən geosiyasi reallıqlar türk dövlətləri üçün bir araya gəlməyin, ortaq bir platformada daha güclü əməkdaşlıq yaratmağın vaxtı çatdığını göstərir. İttifaqlaşmanın bu gün dünyada mühüm rol oynadığını Atlantika Xartiyası ilə ABŞ və Britaniyanın tarixi birliyindən, həmçinin ABŞ, Böyük Britaniya və Avstraliya arasında yaradılmış AUKUS hərbi ittifaqından aydın görmək olar. Bu qlobal tendensiyanın işığında türkdilli dövlətlər öz əlaqələrini daha da gücləndirməli, təhlükəsizlik, iqtisadi və hərbi sahələrdə əməkdaşlığı koordinasiyalı şəkildə inkişaf etdirməlidirlər. Türk Dövlətləri Təşkilatının Zirvə toplantısı məhz bu məqsədə xidmət edir. Keçirilən görüşlər türkdilli dövlətlər üçün yalnız bir diplomatik görüş deyil, gələcəkdə daha güclü və müstəqil bir təhlükəsizlik strukturu yaratmaq, türk dünyasını ortaq mənafelər naminə birləşdirmək istiqamətində atılan mühüm addımlardır.

Azərbaycan və Türkiyə kimi ölkələr Cənub-Qərbi Asiyanın önəmli aktorları olaraq bu birliyin mərkəzində dayanır və regionun gələcək perspektivləri üçün əvəzsiz rol oynayır. Türk Dövlətləri Təşkilatında hətta Avropadan olan Macarıstanın müşahidəçi qismində iştirakı isə bu platformanın əhəmiyyətini daha da artırır və türk birliyinin artıq regional bir təşəbbüs deyil, qlobal miqyasda diqqət çəkdiyini göstərir. Türkdilli dövlətlərin ortaq səy və hədəfləri sayəsində bu əməkdaşlığın, şübhəsiz, böyük nailiyyətlərə yol açacağı gün uzaqda deyil.

Qeyd etmək yerinə düşər ki, Macarıstanın Baş naziri Viktor Orban da bu il Bişkekdə keçirilən Zirvə toplantısında Türk Dünyasının Ali Ordeni ilə təltif olunub. Azərbaycan Prezidenti İlham Əliyevin təltifolunma mərasimində iştirak etməsi bir daha türk birliyinin sağlam tellərlə bağlı olduğunu göstərir.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, Prezident İlham Əliyevin uzaqgörən xarici siyasəti, praqmatik diplomatiyası və eyni zamanda xalqının və dövlətinin maraqlarından çıxış edərək atdığı addımların məntiqi nəticəsidir ki, işğaldan azad edilən Şuşa Türk Dünyasının mədəniyyət paytaxtı elan edilmişdir. Qeyd edək ki, təkcə Şuşaya deyil, digər işğaldan azad edilən ərazilərimizə də türk dövlətlərinin liderləri xüsusi qayğı göstərirlər. Dövlət başçılarının bölgəyə müntəzəm səfərləri, azad olunan ərazilərdə aparılan bərpa-quruculuğa töhfə verilməsi ayrı-ayrılıqda çox təqdir edilməsi bir addımdır. Xüsusi qeyd edilmədir ki, Türk dünyasının diqqəti daim Şuşada cəmlənir. Prezident İlham Əliyev iyunun 6-da TÜRKPA-nın nümayəndələri ilə görüşündə bildirmişdir ki, onun təşəbbüsü ilə bir aydan sonra Şuşada Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşü keçiriləcək. Belə ki, iyulun 5-6-da regional və beynəlxalq güc mərkəzinə çevrilən Türk Dövlətləri Təşkilatına daxil olan ölkələrin liderlərinin iştirakı ilə qeyri-rəsmi Zirvə toplantısı keçirildi.

Azərbaycan türkdilli dövlətlər arasında birləşdirici rolunu yalnız ortaq dil, din, tarix və mədəniyyət telləri ilə məhdudlaşdırmayıb, onu daha dərin və çoxşaxəli bir missiyaya çevirmişdir. Həyata keçirilən müxtəlif layihələr türk dövlətlərini iqtisadi və siyasi cəhətdən bir araya gətirərək bu ölkələr arasındakı əlaqələri daha möhkəm dayanıqlı həmrəyliyə çevirir. Bu prosesdə Azərbaycan bir lokomotiv kimi türk dünyasını irəliyə aparır, onu qlobal arenada gücləndirir və söz sahibi edir. Azərbaycan türkdilli xalqlar arasında birlik arzusunu gerçəkləşdirərək türk dövlətlərini ortaq gələcək naminə daha yaxınlaşdırır, TDT-ni dünyada güclü və nüfuzlu bir ittifaqa çevirir.

**Nurlan ABDALOV,**
**"Respublika".**